

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 196 (21.606)

19 oktyabr 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də İran İslam Respublikasının Ərdəbil əyalətinin valisi Məcid Xudabəxşin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə ölkələrimizin ayrı-ayrı regionları arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən qarşılıqlı sərmayə qoyuluşu, turizm və digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonu və Bankın Azərbaycan üzrə yeni təyin olunmuş ölkə meneceri Navid Həsəni qəbul edib.

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulanıb, bu günədək magistral yolların çəkilməsi, su təchizatı və kanalizasiya xidmətləri, məcburi köçkünlərin yaşayış standartlarının yaxşılaşdırılması, ədliyyə sistemi və digər sahələrdə 50-dən artıq layihə üzərində iş aparıldığı və bu layihələrdən 40-nın uğurla reallaşdırıldığı qeyd olunub.

# Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə tədbirlər keçirilmişdir

Oktyabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şəhidlər xiyabanındakı “Ana abidəsi”ni, dövlət müstəqilliyimiz və ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olanların məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türk ordusunun bu torpaqlarda şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir.

Ali Məclisin Sədri Azərbaycan dövlət müstəqilliyinin banisi ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül düzmüş, müstəqil Azərbaycanın qurucusunun xatirəsini ehtiramla yad etmişdir.

Nazirlik, komitə, baş idarə və müəssisələrin rəhbərləri, şəhər və rayon icra hakimiyyətlərinin başçıları, ictimaiyyətin nümayəndələri də Şəhidlər xiyabanını və ümummilli liderimizin abidəsini ziyarət etmişlər.







Sonra Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında” 2016-cı il 11 oktyabr tarixli Sərəncamına əsasən müstəqillik bayramımız ölkəmizin hər yerində geniş şəkildə qeyd olunur. Bu tarixi gündə Azərbaycanın dövlət müstəqilliyinin banisi ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə dərin ehtiramımızı bildirir, eyni zamanda dövlət müstəqilliyimiz və ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban verən şəhidlərimizi yad edirik.

Ali Məclisin Sədri müstəqilliyimizin iyirmi beşinci ildönümü münasibəti ilə şəhid ailələrini, veteranları, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı ordu, birləşmə və hissələrinin şəxsi heyətlərini, muxtar respublika əhalisini təbrik edərək demişdir: Hər bir xalqın ən dəyərli sərvəti onun dövlət müstəqilliyidir. Ümummilli liderimiz Heydər Əliyev 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının rəhbəri olarkən dövlət müstəqilliyinin bərpa olunması sahəsində əməli addımlar atmış, ölkə rəhbərliyinə qayıtdıqdan sonra isə Azərbaycanı əsl müstəqil dövlətə çevirmişdir. Azərbaycanın dövlət müstəqilliyini həyatının mənasına çevirən ulu öndərimiz deyirdi: ***“Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır”***.

Ali Məclisin Sədri demişdir: Bu gün böyük şəxsiyyətin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidentinin rəhbərliyi altında dövlət müstəqilliyimiz daha da möhkəmlənmiş, Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası böyük inkişaf yolu keçmişdir. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında əldə olunan nailiyyətlər dövlət müstəqilliyinin nəyə qadir olduğunun əyani ifadəsidir. İnkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalı 1995-ci ilə nisbətən 56 dəfə artaraq 2015-ci ildə 2 milyard 467 milyon manatdan çox olmuşdur. Müqayisə olunan dövrdə sənaye məhsulunun həcmi 100 dəfə, əsas kapitala yönəldilən investisiyalar 312 dəfə, rabitə xidmətlərinin həcmi 112 dəfə, kənd təsərrüfatı məhsulu 10 dəfə, ixracın həcmi 214 dəfə, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 25 dəfə artmışdır.

Aparılmış tədbirlər nəticəsində muxtar respublikada enerji təhlükəsizliyi təmin olunmuşdur. Əgər əvvəllər muxtar respublikada elektrik enerjisi istehsal edən 1 stansiya vardısa, hazırda 8 elektrik stansiyası fəaliyyət göstərir. Əvvəllər muxtar respublika iqtisadiyyatında aqrar sektor üstünlük təşkil edirdisə, hazırda iqtisadiyyat aqrar-sənaye təmayülünə malikdir. Ötən dövr ərzində sənaye müəssisələrinin sayı 8 dəfə artırılaraq 442-yə çatdırılmışdır. Dinamik inkişafın təmin edilməsində investisiyaların cəlbi xüsusi rol oynamaqdadır. 1995-ci ildən 2016-cı il oktyabrın 1-dək iqtisadi və sosial sahələrə 7 milyard 458 milyon manatdan çox investisiya yönəldilmiş, 3675 kilometrlik avtomobil yolu çəkilmiş, 163 körpü, 5 avtovağzal, 546 inzibati bina, mənzil təsərrüfatı üzrə 689 obyekt, 22 xəstəxana, tibb mərkəzi və dispanser, 78 feldşer-mama məntəqəsi, 69 həkim ambulatoriyası, 443 mədəniyyət, 47 idman müəssisəsi, 71 min 946 şagird yerlik 183 ümumtəhsil məktəbi, 19 məktəbəqədər, 14 məktəbdənkənar təhsil müəssisəsi, elm, ali və orta ixtisas təhsili müəssisələri üçün korpuslar tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Müstəqillik dövründə bir yeni rayon yaradılmış, 4 qəsəbə, 133 kənd mərkəzi istifadəyə verilmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, hissə və bölmələrin döyüş imkanlarının artırılması məqsədilə ötən 25 il ərzində 203 müxtəlif təyinatlı obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, maddi-texniki baza daha da möhkəmləndirilmişdir. Muxtar respublikada müasir yol-nəqliyyat, informasiya və kommunikasiya sistemləri yaradılmışdır. Hazırda yaşayış məntəqələrinin 98 faizində genişzolaqlı, 83 faizində isə simsiz internet xidməti göstərilir. Müstəqillik dövründə həyata keçirilən tədbirlərin mühüm istiqamətlərindən birini də ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində fəaliyyət təşkil etmişdir. İndi muxtar respublikada 61 min 526 hektar sahədə əkin aparılır ki, bu da 20 il əvvəlki göstəricidən 2,4 dəfə çoxdur. Təkcə bu il sahələrdən 1995-ci illə müqayisədə 4 dəfə çox taxıl, 55 dəfə çox tərəvəz, 114 dəfə çox kartof, 91 dəfə çox bostan məhsulları götürülmüşdür. Əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək üçün 120 min kvadratmetr sahəyə malik 20 istixana, 13 min 730 ton tutuma malik 26 soyuducu anbar kompleksi yaradılmışdır. Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, əhalinin 344 növdə məhsula olan tələbatı muxtar respublikanın daxili imkanları hesabına ödənilir.

Ali Məclisin Sədri demişdir: Bütün bunlar adamların rifahının davamlı yüksəlişinə zəmin yaratmış, əhalinin gəlirlərinin həcmi 25 il bundan əvvəlki dövrlə müqayisədə 42 dəfə artmışdır. Bununla yanaşı sosial müdafiəyə ehtiyacı olan əhali qrupuna da diqqət artırılmış, müharibə veteranlarına 456 avtomobil verilmiş, 210 məhdud fiziki imkanlı və şəhid ailəsi

Ardı 2-ci səhifədə



fərdi yaşayış evləri ilə təmin edilmişdir. Sahibkarlığın inkişafı, yeni iş yerlərinin açılması, ucqar dağ kəndlərində də rayon mərkəzlərindəki kimi sosial infrastrukturun yaradılması məskunlaşmaya öz təsirini göstərmiş, 1992-ci illə müqayisədə 2016-cı ildə muxtar respublika əhalisinin sayı 132 min nəfər artaraq 447 min nəfərdən çox olmuşdur.

Muxtar respublikada əldə olunan bütün bu nailiyyətlərin əhalinin yaradıcı əməyinin nəticəsi olduğunu bildirən Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyev yoluna sədaqət göstərərək müstəqilliyimizin möhkəmlənməsinə öz töhfəsini verənlərin hamısına təşəkkür edərək demişdir: Müstəqillik dövründə fədakarlıqla çalışanların, öz əməyi ilə digərlərinə nümunə olanların fəaliyyəti yüksək qiymətləndirilmiş, muxtar respublikamızdan 725 nəfər Azərbaycan Respublikasının orden və medalları ilə, 224 nəfər Azərbaycan Respublikasının, 387 nəfər isə Naxçıvan Muxtar Respublikasının fəxri adları ilə təltif olunmuş, muxtar respublika sakinlərindən 32-si Azərbaycan Prezidentinin fərdi təqaüdünə, 92-si isə Prezident mükafatına layiq görülmüşdür.

"Bu gün istisnasız olaraq deyə bilərik ki, ötən 25 il ərzində həyata keçirilən tədbirlər, əldə olunan nailiyyətlər dövlət müstəqilliyimizin daha da möhkəmlənməsinə, davamlı xarakter almasına xidmət etmişdir. Biz bundan sonra da ümummilli liderimizin yolu ilə gedərək muxtar respublikamızın, onunla birlikdə isə ölkəmizin quruculuq salnaməsini layiqli nümunələrlə zənginləşdirəcəyik", – deyən Ali Məclisin Sədri bu yolda tədbir iştirakçılarına uğurlar arzulamış, bir daha müstəqillik bayramlarını təbrik etmiş, çıxışını ölkə Prezidentinin fikirləri ilə tamamlamışdır: ***"Ölkəmiz inkişaf edir. Heydər Əliyev siyasəti yaşayır və həyata keçirilir. Çox sevindirici haldır ki, bütün görülən işlər xalq tərəfindən böyük rəğbətlə qarşılanır və dəstəklənir. Hər bir vətəndaş əlindən gələni edəcək ki, ölkəmiz daha da güclənsin, möhkəmlənsin. Azərbaycan möhkəmləndikcə öz dövlət müstəqilliyini gücləndirəcək və müstəqilliyimiz əbədi, dönməz olacaqdır"***.



Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları Dövlət Bayrağı Muzeyində nümayiş olunan eksponatlara baxmışlar.

Məlumat verilmişdir ki, hər bir dövlətin müstəqilliyinin əsas atributu onun bayrağıdır. Ona görə də bayraq Azərbaycanda tarix boyu milli mövcudluq simvolu sayılmışdır. Muzeydə nümayiş olunan bayraqlar Azərbaycanın qədim dövlətlərinin, o cümlədən Naxçıvan xanlığının və muxtar respublikanın tarixini öyrənməyə geniş imkanlar yaradır. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" Qərarın surəti və həmin tarixi günə aid fotoşəkillər haqqında məlumat verilmiş, hər il noyabr ayının 17-nin Naxçıvan Muxtar Respublikasında dövlət bayrağı günü kimi qeyd olunduğu diqqətə çatdırılmışdır.

Bildirilmişdir ki, tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının dövlət və döyüş bayraqları böyük maraq doğurur. Naxçıvan xanlığının dövlət bayrağının üzərində ay və səkkizguşəli ulduz əks edilmişdir. Bu da ay və səkkizguşəli ulduz elementinin ilk dəfə Naxçıvan xanlığının dövlət bayrağında əks olunduğunu təsdiq edir. Muzeyin ekspozisiyasındakı gerblər və inzibati xəritələr, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, qədim pul nişanlarının fotoşəkilləri, Naxçıvanın tarixi və dövlət atributlarımız barədə yazılmış kitablar barədə də ətraflı məlumat verilmişdir.

Ali Məclisin Sədri muzey ekspozisiyasının daha da zənginləşdirilməsi barədə tapşırıq vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 13 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ilə bağlı Naxçıvan Muxtar Respublikasında həyata keçiriləcək Tədbirlər Planı"na əsasən Heydər Əliyev lektoriyalarının "Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda məşğələləri keçirilir.***

Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən məşğələni giriş sözü ilə açan komitə sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov qeyd edib ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında ən mühüm xidmətlərindən biri dövlət müstəqilliyinin əsaslarının işlənib hazırlanması, onun yenidən bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi olub. Ötən 25 il ərzində dövlət quruculuğu prosesində ən ümdə amal, arzu və niyyətlər gerçəkləşdirilib. Uğurlu daxili və xarici siyasət sayəsində dövlətçilik ənənələrimiz, siyasi sistemimiz möhkəmlənib, iqtisadiyyatımız inkişaf edib, müdafiə qüdrətimiz artıb, mədəniyyətimiz zənginləşib, milli-mənəvi dəyərlərimiz qorunub. Müstəqil Azərbaycan Respublikası bu gün hər bir vətəndaşımız və xaricdə yaşayan soydaşımız üçün əsl qürur mənbəyinə çevrilib.

"Naxçıvan" Universitetinin İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev "Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda məruzə edib. Qeyd olunub ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpası uğrunda mübarizə və bu idealın gerçəkləşdirilməsi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin bütün dövrlərində özünü əyani şəkildə göstərir. Azərbaycanın milli maraqlarının, milli-mənəvi dəyərlərinin, coğrafi bütövlüyünün, tarixi yaddaşının, milli məfkurəsinin qorunması üçün son dərəcə ağır və çətin dönəmlərdə həyata keçirilən işlər dahi rəhbərin dövlət müstəqilliyimizin bərpası və xilası naminə çoxşaxəli fəaliyyətinin tərkib hissəsidir. Ulu öndər Heydər Əliyev bütün həyatı boyu Vətəninin, xalqının gələcəyini düşünüb, Azərbaycanın müstəqilliyinin əbədiliyinə bütün varlığıyla inanaraq bu dövlətin ideya əsaslarını, strateji inkişaf istiqamətlərini müəyyənləşdirib.

Müstəqil Azərbaycanın bugünkü inkişaf yolunun əsas istiqamətlərindən danışılarkən qeyd olunub ki, bu inkişaf, ilk növbədə, xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttin ardıcıl şəkildə davam etdirilməsinin nəticəsidir.

"Heydər Əliyev ideyaları və müstəqil düşüncəli gənc nəsil" mövzusunda məruzə ilə çıxış edən komitənin Daxili təhlükəsizlik şöbəsinin inspektoru, gömrük xidməti leytenantı Tural Həsənli qeyd edib ki, şəxsiyyəti və fəaliyyəti dövlətimizin atributu, simvolu səviyyəsinə qalxmış ümummilli lider Heydər Əliyevin irsi – vətənə, xalqa sədaqətlə xidmət etmək, müstəqilliyimizi göz bəbəyi kimi qorumaq və bu yolda canını belə əsirgəməmək kimi müqəddəs dəyərlər bütün vətəndaşlarımız üçün həyat məktəbidir. Müstəqil Azərbaycanda müstəqil düşüncəli gənc nəsil də bu gün ümummilli liderin ideyaları ilə böyüyüb inkişaf edir.

Tədbirə komitə sədri Asəf Məmmədov yekun vurub.

Sonda tədbir iştirakçıları "Dahi şəxsiyyət" adlı filmə baxıblar.

* * *

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində də Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini Məcid Seyidov açaraq bildirib ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpası və qorunub saxlanılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bütün mənalı ömrünü xalqımızın nicatına həsr etmiş dahi şəxsiyyət ölkəmizin müstəqilliyinin qorunmasında və inkişaf etdirilməsində misilsiz xidmətlər göstərib.

"Naxçıvan" Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru İbrahim Kazımbəyli "Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda çıxış edərək bildirib ki, ulu öndərimizin prinsipiallığı, cəsarəti, milli ideyalara bağlılığı nəticəsində hələ sovet dövründə gələcəyin müstəqil Azərbaycanı naminə cəsarətli addımlar atılaraq Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit edilib, iqtisadiyyat, elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin inkişafında ciddi nailiyyətlər əldə olunub.



Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib, milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarıb. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, üçrəngli bayrağımızın ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi və digər tarixi qərarlar müstəqillik yolunda irəliləyən Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin qətiyyəti və əzmkarlığı sayəsində ölkə parçalanmaqdan, vətəndaş müharibəsindən qurtulub. Onun dühasının qüdrəti sayəsində Azərbaycanda milli-ideoloji birliyin təməli qoyulub, müstəqilliyimiz möhkəmləndirilərək əbədi və dönməz xarakter alıb.

Vurğulanıb ki, milli dövlət və ordu quruculuğu sahəsində əldə olunmuş nailiyyətlər, qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin qurulması, iqtisadiyyatın inkişaf etdirilməsi və sair bu kimi uğurlar Heydər Əliyev dühasının bəhrələridir. Məhz dahi liderin fəaliyyəti nəticəsində Azərbaycan Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlayaraq dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. Ümummilli lider Heydər Əliyevin "Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!" fikri indi dünya dövlətləri sırasında günbəgün mövqeyini gücləndirən müstəqil Azərbaycanın simasında bir daha öz təsdiqini tapır.

Tədbirə Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini Məcid Seyidov yekun vurub.

***Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin "Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda 208-ci məşğələsi keçirilib.***

Məşğələdə giriş sözü ilə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycan xalqının milli müstəqillik uğrunda çoxəsrlik mübarizəsindən, bu yolda ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi hərbi, iqtisadi, sosial, ideoloji tədbirlərdən, milli müstəqilliyimizin bugünkü nailiyyətlərindən danışıb. Qeyd olunub ki, bu gün müstəqil Azərbaycan Respublikası ümummilli liderin ideyaları işığında inkişaf etmiş dövlətlər sırasında inamla irəliləyir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında" 2016-cı il 11 oktyabr tarixli Sərəncamının əhəmiyyətindən danışan rektor kollektivi bu əlamətdar bayram münasibətilə təbrik edib.

Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev mövzu ilə bağlı geniş məruzə edərək hər bir dövlətin siyasi təzyiqlərdən, iqtisadi asılılıqdan xilas olaraq azad, müstəqil fəaliyyət göstərməsinin zəruriliyindən danışıb, 1918-ci ildə Azərbaycanda yaradılan Şərqin ilk demokratik respublikasının fəaliyyətindən bəhs edib. Bildirilib ki, XX əsrin sonlarında geniş vüsət almış milli azadlıq hərəkatı 1991-ci il oktyabrın 18-də Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi kimi tarixi qələbə ilə nəticələndi. Lakin xarici düşmənlərin təsiri ilə ölkədə yaranmış siyasi çəkişmələr, vətəndaş qarşıdurması milli müstəqilliyimizi itirmək təhlükəsi yaratmışdı. Məhz belə bir dövrdə yenidən siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev müstəqil dövlət quruculuğuna yönəlmiş uzaqgörən siyasəti ilə ölkəmizi bu bəladan xilas etdi, müstəqil Azərbaycanı dinamik inkişaf yoluna çıxardı. Bununla da, O, Azərbaycanın dövlət müstəqilliyinin banisi və qarantı, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallaşdıran dahi şəxsiyyət kimi tarixə düşdü. Bu gün müstəqil Azərbaycan ümummilli liderin ideyalarını rəhbər tutmaqla, qətiyyətli daxili və xarici siyasət yürütməklə möhtəşəm nailiyyətlər qazanmaqdadır. Bunu uzun illər blokadada yaşamasına baxmayaraq, misligörünməmiş inkişafa nail olan Naxçıvan Muxtar Respublikasının timsalında da aydın görmək olar.

Tədbirdə Azərbaycanın müstəqillik tarixindən bəhs edən slaydlar nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

## AMEA Naxçıvan Bölməsində müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasının tarixinə həsr olunmuş kitabların təqdimat mərasimi keçirilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev AMEA-nın 70 illik yubileyindəki nitqində müstəqilliyin 25 illik yubileyi ilə bağlı ayrıca əsərlərin yazılması zərurətini xüsusi vurğulayıb. Akademik İsmayıl Hacıyevin müəllifi olduğu "Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında" adlı monoqrafiyanın və "Naxçıvan müstəqillik illərində: hədəflər, inkişaf nəticələr" adlı məqalələr toplusunun işıq üzü görməsi də bu zərurətdən qaynaqlanıb.

Bu fikirlər AMEA Naxçıvan Bölməsində keçirilən təqdimat mərasimində səsləndirilib. Mərasimi giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev müstəqillik dövrünün tarixinin obyektiv elmi faktlar əsasında öyrənilməsinin vacib əhəmiyyətindən danışıb. Qeyd edilib ki, ötən 25 illik müddət ərzində Naxçıvan Muxtar Respublikası da özünəməxsus inkişaf yolu keçib.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Naxçıvan Muxtar Respublikasının müstəqillik illərindəki tarixinə həsr edilmiş əsər" adlı məruzəsində akademik İsmayıl Hacıyevin "Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında" adlı monoqrafiyasının elmi məziyyətlərindən bəhs edib. Bildirib ki, monoqrafiyada Naxçıvan Muxtar Respublikasının keçdiyi yol çox müfəssəl şəkildə işıqlandırılıb, müstəqilliyimizin təməl prinsiplərinin Naxçıvanda müəyyənləşdirildiyi elmi faktlarla ortaya qoyulub.

Həmin institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Asəf Orucov "Naxçıvan Muxtar Respublikasının müstəqillik illərindəki inkişafına həsr olunmuş əsər" adlı məruzəsində isə "Naxçıvan müstəqillik illərində: hədəflər, inkişaf nəticələr" adlı məqalələr toplusunda yer alan məqalələrin mahiyyəti və məzmunu barədə məlumat verib. Vurğulanıb ki, topluda Naxçıvan Muxtar Respublikasında ictimai həyatın müxtəlif sahələrində 25 il ərzindəki inkişaf yolu təhlil edilib.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işçisi Elnur Kəlbizadə və İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev məruzələr ətrafında çıxışlar ediblər.

---

## Naxçıvan Muxtar Respublikasının müasir dövr tarixi haqqında kompleks tədqiqat əsəri

***"Müstəqilliyimiz haqqında hamı böyük iftixar hissi ilə danışır... Müstəqilliyi möhkəmləndirmək üçün xalqımızın, millətimizin qədim tarixini, keçdiyi yolu elmi surətdə tədqiq edib əsərlər, illüstrativ materiallar, kinolentlər yaratmaq, bunu həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərmək lazımdır". Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bu fikirləri müstəqillik dövrü tarixinin tədqiqi ilə məşğul olan hər bir elm adamı üçün yol göstəricisidir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin yeni çapdan çıxmış "Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında" adlı əsəri məhz bu müdrik fikirlərin işığında yazılan və doğma diyarın müasir dövr tarixinə kompleks yanaşmanı ortaya qoyan fundamental monoqrafiyadır. Əsərin yazılması həm də müstəqillik haqqında fundamental tədqiqatların ortaya çıxarılması zərurətindən irəli gəlib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev AMEA-nın 70 illik yubileyindəki nitqində müstəqilliyin 25 illik yubileyi ilə bağlı ayrıca əsərlərin yazılması zərurətini xüsusi vurğulamışdır.***




Bu mənada, akademik İsmayıl Hacıyevin yeni çapdan çıxmış "Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında" adlı monoqrafiyasını müstəqilliyin 25 illik yubileyinə Naxçıvan elminin töhfəsi də adlandırmaq olar. Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasının tarixinə həsr edilmiş kitabın elmi redaktoru Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli, rəyçiləri Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Fəxrəddin Səfərli, tarix elmləri doktoru, professor Oktay Sultanov və tarix elmləri doktoru Ədalət Qasımovdur. Ciddi mənbələrə, arxiv materiallarına, hüquqi sənədlərə əsaslanmaqla yazılan əsərdə müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasının keçdiyi yol müfəssəl şəkildə işıqlandırılmış, müstəqilliyimizin təməl prinsiplərinin Naxçıvanda müəyyənləşdirildiyi elmi faktlarla ortaya qoyulmuşdur.

Məhz bu məqamı əsas götürərək birinci fəsildə müəllif hələ müstəqilliyin əldə edilməsi ərəfəsində Naxçıvanın ictimai-siyasi və sosial-iqtisadi həyatını geniş şəkildə təhlil etmişdir. "Dağlıq Qarabağ münaqişəsi və bunun Naxçıvanın ictimai-siyasi həyatına təsiri" adlı hissədə qeyd edilir ki, Dağlıq Qarabağ münaqişəsinin başlanması, erməni millətçilərinin Dağlıq Qarabağı Ermənistan SSR-ə birləşdirmək arzusu, azərbaycanlıların öz ata-baba yurdlarından zor gücünə çıxarılması, onların qaçqına çevrilməsi, Moskvanın ikili siyasəti və başqa məsələlər Azərbaycanda olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da ictimai-siyasi vəziyyəti kəskinləşdirmiş, naxçıvanlıları mübarizəyə qaldırmışdır. Bu dövrdə tarixi Qərbi Azərbaycan torpaqlarından köçkün düşmüş minlərlə soydaşımız məhz Naxçıvana pənah gətirmişdir. Bundan başqa, bu hissədə müharibənin, yaranmış vəziyyətin muxtar respublikamızın sosial-iqtisadi durumunda yaratdığı çətinliklər də faktlarla əsaslandırılmışdır. Göstərilir ki, 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində muxtar respublikanın iqtisadiyyatı böhran vəziyyətinə düşmüşdü. 1989-1991-ci illərdə sənaye istehsalı 26,6 faiz, kənd təsərrüfatında məcmu məhsul 25,5 faiz, heyvandarlıq məhsulları isə 34 faiz azalmışdır.

Əsərdə Azərbaycan milli azadlıq hərəkatının mühüm mərhələsini təşkil edən "Sərhəd hərəkatı"nın Naxçıvandan başladığı, "Sərhəd hərəkatı"na rəsmi səviyyədə siyasi və tarixi qiymətin ilk dəfə məhz Naxçıvanda, ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli sessiyasında verildiyi qeyd edilmişdir.

Naxçıvanlıların ermənilərə qarşı mübarizəsi mövzusu monoqrafiyada əksini tapmış ən mühüm məsələlərdəndir. O zaman ölkədə yaranmış şəraitdən istifadə edən Ermənistan hakimiyyət dairələri Azərbaycana, o cümlədən Naxçıvana qarşı iddialarını açıq silahlı təcavüz yolu ilə gerçəkləşdirmişdir. Naxçıvan diyarı çətin sınaqlar qarşısında qalmışdı. Monoqrafiyada Naxçıvan MSSR-in 19 yanvar 1990-cı ildə SSRİ-nin tərkibindən çıxması barədə qəbul edilmiş cəsarətli qərarının ölkəmizin gələcək müstəqillik yolu üçün əhəmiyyəti göstərilmiş, bütün dünyaya səs salan bu etirazın naxçıvanlıların azadlıqsevərliklərinin nümayişi olduğu xüsusi vurğulanmışdır. Müəllif bu barədə ulu öndər Heydər Əliyevin münasibətini də əks etdirir: ***"Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevən və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi, nümayiş etdirdi".***

Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıdışı Azərbaycanın müstəqil dövlətçilik tarixinə gedən yolda tarixi zərurətdən doğan əhəmiyyətli bir məqamdır. Kitabda bu məsələyə xüsusi olaraq diqqət ayrılmışdır.

Monoqrafiyada Naxçıvanda ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında reallaşdırılan demokratik dəyişikliklərin mahiyyəti açıqlanmış, o zaman Naxçıvan MSSR Ali Sovetinin tarixi əhəmiyyətli 4 qərarına xüsusi diqqət yetirilmişdir. Bunlar gələcək müstəqilliyin əsaslarını müəyyənləşdirən "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərarlardır. Müəllif belə bir nəticəyə gəlir ki, Naxçıvanda bu addımların atılması bilavasitə ulu öndərin cəsarətinin nəticəsi idi. Hələ Bakıda ölkənin müstəqilliyi barədə qərarın qəbul edilməsi üçün tərəddüdlərin olduğu bir vaxtda Naxçıvan Muxtar Respublikası Ali Məclisi artıq milli dövlətçilik ənənələrinin bərpasına istiqamətlənmiş qəti qərarlar qəbul edirdi.

Monoqrafiyanın ikinci fəsli "Naxçıvan müstəqilliyin ilk illərində (1991-1993-cü illər)" adlanır. Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi, bu dövrdə Naxçıvan Muxtar Respublikasında aparılan iqtisadi islahatlar, dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən müdafiəsi istiqamətindəki misilsiz xidmətləri, aparılan diplomatik danışıqlar, Naxçıvan həqiqətlərinin dünyaya bəyan edilməsi, Naxçıvandan rus qoşunlarının çıxarılması və burada milli ordunun formalaşdırılması, beynəlxalq əlaqələrin genişləndirilməsi məsələləri bu fəsildə geniş şəkildə işıqlandırılmışdır. Monoqrafiyada bu barədə yazılır: "Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında muxtar respublikada dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. Mövcud siyasi böhran aradan qaldırıldı, iqtisadi islahatlar həyata keçirildi, sahibkarlığın inkişafı üçün müəyyən şərait yaradıldı, hərbi quruculuq məsələlərinə xüsusi diqqət yetirildi. Naxçıvanda mütəmadi hal almış erməni hücumlarının qarşısı alındı".

Bütün baş verən bu hadisələrin fonunda Azərbaycanın gələcək taleyində ən mühüm və mütəşəkkil qüvvəyə çevriləcək Yeni Azərbaycan Partiyasının da o zaman məhz Naxçıvanda təsis olunması, sağlam siyasi qüvvələrin məhz burada toplanmasının səbəbləri əsərdə geniş şəkildə işıqlandırılmışdır.

Müstəqilliyin qorunub saxlanılması onun əldə edilməsindən daha çətindir. Çünki müstəqilliyin elan edilməsi bir an, onun qorunub saxlanılması isə məqsədyönlü şəkildə həyata keçirilməli olan uzunmüddətli prosesdir. "Naxçıvan müstəqilliyin möhkəmləndirilməsi dövründə (1993-2015-ci illərdə)" adlanan üçüncü fəsil bu fikri daha da möhkəmləndirir. Ulu öndər Heydər Əliyevin Azərbaycanı düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün xalqın təkidli tələbləri ilə Naxçıvandan Bakıya qayıtması və Azərbaycanı yeni inkişaf yoluna çıxarması ilə bağlı məsələlərə toxunan akademik İsmayıl Hacıyev 1993-cü ilin iyununu ölkəmizin ictimai-siyasi həyatında dönüş nöqtəsi, yeni tarixi mərhələnin başlanğıcı adlandırır.

Naxçıvan Muxtar Respublikasının əsaslı iqtisadi inkişaf dövrünün 1995-ci ilin dekabrından başladığının qeyd olunduğu monoqrafiyada həmin ildən sonrakı dövrdə baş verən ictimai-siyasi proseslər, Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərin tarixi məqamları geniş şəkildə təhlil edilmişdir.

Təbii ki, reallaşdırılan siyasət sosial-iqtisadi inkişafa, xalqın rifah halının yüksəldilməsinə xidmət etməlidir. Muxtar respublikada 1995-ci ildən bəri reallaşdırılan sosial-iqtisadi inkişafın səciyyəsini biz monoqrafiyada təqdim edilən faktlarda açıq-aydın müşahidə edə bilərik. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, monoqrafiyada da göstərildiyi kimi, reallaşdırılan mükəmməl iqtisadi siyasət nəticəsində artıq 2009-cu ildə muxtar respublikada ümumi daxili məhsulun həcmi 1 milyard ABŞ dolları səviyyəsini ötmüş, 2010-cu ildə bu rəqəm 1 milyard 171 milyon manat, 2014-cü ildə 2 milyard 391 milyon manat, 2015-ci ildə 2 milyard 467 milyon 422 min manata çatmışdır. Monoqrafiyada 1995-ci illə 2015-ci ilin müqayisəsi aparılaraq göstərilir: "2015-ci ildə ümumi daxili məhsul istehsalı 1995-ci ildəkinə nisbətən 56,4 dəfə artaraq 2 milyard 467 milyon 422 min manat təşkil etmiş, hər bir nəfərə düşən ÜDM istehsalı 42 dəfə artmışdır".

Müəllif muxtar respublikada həyata keçirilən tikinti-quraşdırma, abadlıq işlərinin xarakterini və mahiyyətini geniş şəkildə təhlil etmişdir. Tikinti və abadlıq işlərinin təhsil və səhiyyə müəssisələrinin, kənd mərkəzlərinin, tarixi abidələrin, sosial obyektlərin simasında öz əksini tapması xüsusi olaraq vurğulanmışdır. Sitat: "Son illərdə muxtar respublikada aparılan tikinti, quruculuq və abadlıq işləri nəticəsində Naxçıvan şəhəri, rayon mərkəzləri, qəsəbə və kəndlər göz oxşayır, Şərq və Qərb memarlıq elementlərini özündə birləşdirən sosial obyektlər, inzibati binalar, yaşayış evləri diyara gözəllik verir, bu işi görənlərin əməyi yüksək qiymətləndirilir".

Muxtar respublika iqtisadiyyatının mühüm sahələrindən biri olan kənd təsərrüfatında görülən işlər də monoqrafiyada öz əksini tapmışdır. Kənd təsərrüfatı sahəsində islahatların əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunun xüsusi vurğulandığı kitabda muxtar respublikada bu sahənin müasir inkişafı xarakterizə olunmuşdur. Göstərilmişdir ki, muxtar respublikada kənd təsərrüfatının inkişafı istifadəsiz qalmış yararlı torpaqların mənimsənilməsi, mövcud su ehtiyatlarından səmərəli istifadə edilməsi və suvarmanın təkmilləşdirilməsi ilə birbaşa bağlılıq təşkil edir. Araz çayı üzərində hidrotexniki qurğuların, Heydər Əliyev Su Anbarının tikilməsi, Arpaçay, Uzunoba su anbarlarının təmiri, Sədərək, Naxçıvan, Əlincəçay suvarma sistemlərinin işə salınması, genişmiqyaslı meliorasiya-irriqasiya işlərinin görülməsi sayəsində kənd təsərrüfatının suvarma təchizatı yaxşılaşmışdır. 1996-cı ildən ötən illər ərzində onlarla yeni nasos stansiyası tikilmiş, yüzlərlə nasos stansiyalarında təmir işləri aparılaraq işlək vəziyyətə gətirilmiş, su çıxmayan ərazilərdə əkin sahələrinin suvarılması üçün mühüm rol oynayan subartezian quyuları qazılmış, region üçün ənənəvi su mənbəyi olan bir çox kəhrizlər yenidən bərpa olunaraq istifadəyə verilmişdir. Aqrar sahədə əməkçilərin zəruri kənd təsərrüfatı texnikası ilə təchizatını yaxşılaşdırmaq məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və onun rayonlarda xidmət bazaları yaradılmış, yeni texnikalar alınaraq gətirilmişdir. Monoqrafiyanın bu hissəsində kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə təhlillər aparılmışdır.

Nəqliyyat və rabitə sistemində həyata keçirilən işlər, muxtar respublikada elektroenergetikanın yenidən qurulması, əhalinin və müəssisələrin qazla təmin edilməsi məsələləri, ekologiya və yaşıllaşdırma tədbirləri, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində aparılan məqsədyönlü siyasətlə bağlı geniş məlumatların verildiyi kitabda muxtar respublikanın genişlənən beynəlxalq əlaqələrindən də bəhs olunmuşdur.

Monoqrafiyanın dördüncü fəsli "Naxçıvan mədəniyyəti müstəqillik illərində" adlanır. Xüsusi olaraq vurğulamaq lazımdır ki, bu hissədə təqdim edilən bir çox məlumatlar ilk dəfə olaraq dövri nəşrlər səviyyəsindən çıxarılaraq elmi ədəbiyyata gətirilir. Təhsil, elm, mədəni-maarif, ədəbiyyat, mətbuat, incəsənət sahəsindəki inkişaf və dəyişikliklərdən bəhs olunan bu fəsildə ayrı-ayrı elm, təhsil, mədəniyyət xadimlərinin, şair və yazıçıların əldə etdikləri nailiyyətlərə işıq tutulur, onların yaradıcılıqlarından bəhs olunur və mədəni inkişafın birbaşa olaraq dövlət qayğısı ilə bağlı olduğu göstərilir.

*360 səhifəlik "Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında" adlı monoqrafiyada muxtar respublikanın müasir dövr tarixini müfəssəl şəkildə təhlil edən müəllif belə bir nəticəyə gəlir: "Dövlət müstəqilliyinin əldə olunmasında və qorunub möhkəmlənməsində Naxçıvan Muxtar Respublikasının mühüm rolu olmuşdur. Azərbaycan Respublikasının dövlət siyasəti Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Bunun nəticəsidir ki, həyatın bütün sahələrində çox böyük uğurlar qazanılmışdır".*

**Elnur KƏLBİZADƏ**

# Müstəqilliyimizin bəhrələri



Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı

**Tarixin bütün dövrlərində xalqlar üçün ən müqəddəs dəyərlərdən biri də azadlıq, müstəqillik olub. Azərbaycan xalqı da öz azadlığı, müstəqilliyi uğrunda əsrlərlə mübarizə aparıb.**

Ən mühüm nailiyyətlərimizdən biri budur ki, bu gün yüksək zirvələrimizdə üçrəngli bayrağımız dalğalanır. Müstəqil Azərbaycanın çiçəklənən diyarı olan Naxçıvan da ötən 25 ildə böyük inkişaf yolu keçib. Muxtar respublikamız nəinki Azərbaycanın, hətta bütün regionun mədəniyyət, incəsənət, sənaye mərkəzi, ölkəmizin döyünən ürəyi, xalqımızın qürur duyduğu bir məkandır. İndi bu qədim diyarın hansı səmtinə getsək, bizi zirvələrdə dalğalanan üçrəngli Azərbaycan bayrağı, abad, gözəl şəhər və kəndlər, müasir binalar, yollar, hər qarışı əkilən tarlalar, insan zəhmətinin məhsulu olan bağ-bağçalar qarşılayacaq.

Layiq olduğu xoş günlərə qovuşan xalqımız müstəqilliyin qədrini-qiymətini yaxşı bilir, onu göz bəbəyi kimi qoruyur, öz işi, əməli ilə bu müstəqilliyə töhfə verməyə çalışır. Xalq onu da yaxşı bilir ki, artıq heç bir xarici təsir, əsrin əvvəllərində olduğu kimi, müstəqilliyimizi təhdid edə bilməz. Güclü, qüdrətli Azərbaycan Ordusu sərhədlərimizin, xalqımızın, dövlətimizin və dövlətçiliyimizin keşiyindədir.

İndi "Müstəqilliyimiz bizə nə verdi?" sualının cavabında hər bir Azərbaycan vətəndaşı yüzlərlə sahədən misallar gətirə bilər. Müstəqillik bizə azad, firavan ölkədə yaşamaq və işləmək, oxumaq imkanı verib, bizə dünyanın istənilən ölkəsində fəxrlə " Mən azad bir ölkənin, MÜSTƏQİL AZƏRBAYCANIN vətəndaşıyam!" demək imkanı yaradıb.

Artıq dövlət müstəqilliyinin bərpasının 25-ci ilini yaşayan Azərbaycanın bu dövrdə əldə etdiyi müstəqilliyin möhkəmlənməsi, beynəlxalq nüfuzunun artması, respublika iqtisadiyyatının dayanıqlı inkişafının təmin olunması, xalqın rifah halının mütəmadi olaraq yüksəlməsi və digər tarixi nailiyyətlər silsiləsi məhz ümummilli lider Heydər Əliyevin xalqın çağırışı ilə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışının nəticəsidir.

Vətən üçün bütün fədakarlıqlara hazır olan milyonlarla Azərbaycan vətəndaşı, ölkəmizdən kənarda yaşayan bu millətin nümayəndələri üçün müstəqil Azərbaycan bir istinadgah, ümid yeri, məbədgahdır. Tanrıdan umacağımız isə bu azadlığın, hürriyyətin əbədiyyətə qədər qorunmasıdır. Nə qədər ki güclü, qüdrətli Azərbaycan dövləti var, nə qədər ki Heydər Əliyev siyasəti davam etdirilir müstəqilliyimiz əbədi olacaqdır. Bu xalq bir daha üçrəngli bayrağımızın enməsinə imkan verməyəcək, bu yolda canını və qanını fəda etməkdən çəkinməyəcəkdir. Azadlıq bu xalqın alın yazısıdır. Bu yazını artıq heç bir qüvvə silə bilməz.

✍ **Səbuhi HÜSEYNOV**



Kəngərli rayonunun Qıvraq qəsəbəsi



Sədərək rayonunun Heydərabad qəsəbəsi



Arpaçay Su Elektrik Stansiyası



Naxçıvan Muxtar Respublika Xəstəxanası



Şahbuz rayon Biçənək kənd tam orta məktəbi



Əlincə qalası



Ordubad şəhərində uşaq bağçası



Babək rayonunun Xal-xal kəndi

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 777